

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 81 (23.243)

*2 may 2019-cu il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 1-də Uruqvay Şərq Respublikasının xarici işlər naziri Rodolfo Nin Novoanı qəbul edib.

Prezident İlham Əliyev Rodolfo Nin Novoanın Azərbaycanda görüşləri zamanı iqtisadi əməkdaşlığın və biznes strukturları arasında əlaqələrin möhkəmləndirilməsi ilə bağlı perspektivlərin müəyyənləşdiriləcəyinə əmin olduğunu deyib. Dövlətimizin başçısı ölkələrimiz arasında müxtəlif səviyyəli qarşılıqlı səfərlərin də əlaqələrin genişləndirilməsi baxımından önəmini qeyd edib.

Görüşdə V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun əhəmiyyəti vurğulanıb və bu forumun beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi işinə töhfə verəcəyinə əminlik ifadə olunub.

Söhbət zamanı ölkələrimiz arasında kənd təsərrüfatının müxtəlif sahələrində əməkdaşlığın inkişafı üçün böyük perspektivlərin olduğu bildirilib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 1-də Ümumdünya Yəhudi Konqresinin, Avrasiya Yəhudi Konqresinin və Avropa Yəhudilərinin Bakı dini icmasının rəhbərlərinin daxil olduğu nümayəndə heyətini qəbul edib.



## “Naxçıvan-2019” Beynəlxalq Şahmat Festivalının açılış mərasimi keçirilib



Mayın 1-də Naxçıvan Dövlət Musiqili Dram Teatrında ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş “Naxçıvan-2019” Beynəlxalq Şahmat Festivalının açılışı olmuşdur.

Əvvəlcə festival iştirakçıları ümummilli liderimiz Heydər Əliyevin abidəsini ziyarət edərək ehtiramlarını bildirmiş, Heydər Əliyev Muzeyinə gələrək dahi şəxsiyyətin həyatı, siyasi və dövlətçilik fəaliyyəti ilə bağlı eksponatlara baxmışlar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov, Azərbaycan Respublikasının Gənclər və İdman naziri Azad Rəhimov, Azərbaycan Şahmat Federasiyasının prezidenti Elman Rüstəmov və Türkiyə Respublikası Şahmat Federasiyasının prezidenti, Beynəlxalq Şahmat Federasiyasının vitse-prezidenti Gülkız Tülay açılış tədbirində iştirak etmişlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş “Naxçıvan-2019” Beynəlxalq Şahmat Festivalının açılışı münasibətilə iştirakçıları təbrik etmiş, şahmatçıları və qonaqları salamlayaraq demişdir: Azərbaycanda tarixən şahmat geniş yayılmışdır. Ümummilli liderimiz Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə isə şahmat daha da inkişaf etdirilmiş, bu idman növü gənc nəslin intellektual potensialının formalaşdırılmasına öz töhfəsini vermişdir.

Ali Məclisin Sədri demişdir: Bu gün Azərbaycan o ölkələrdəndir ki, şahmat dövlət səviyyəsində himayə olunur. Ölkə Prezidenti cənab İlham Əliyevin qayğısı sayəsində Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında şahmat sistemli və ardıcıl inkişaf etdirilir. Naxçıvan şəhərində müasir Şahmat Mərkəzi, muxtar respublikanın rayonlarında isə uşaq-gənclər şahmat məktəbləri tikilib istifadəyə verilmiş, ümumtəhsil məktəblərində şahmat fənni tədris olunur. Hər il muxtar respublikada ümummilli lider Heydər Əliyevin anadan olmasının ildönümünə həsr olunmuş beynəlxalq şahmat festivalının keçirilməsi isə Naxçıvanı beynəlxalq şahmat mərkəzlərindən birinə çevirmişdir. Artıq muxtar respublikada reytinqli şahmatçılar yetişir. Hazırda Naxçıvanda bir qrossmeyster, iki beynəlxalq şahmat ustası, üç FİDE ustası, bir beynəlxalq hakim və bir FİDE hakimi fəaliyyət göstərir. 4 minə yaxın gənc şahmatla məşğul olur. Gənc şahmatçılardan üçünün adı Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının “Qızıl kitabı”na yazılmış, onlar Ali Məclis Sədrinin aylıq xüsusi təqaüdünə layiq görülmüşlər.

“Hər il olduğu kimi, bu il də “Naxçıvan-2019” Beynəlxalq Şahmat Festivalı iştirakçılarının kütləviliyi ilə fərqlənir”, – deyən Ali Məclisin Sədri yarışların əsl idman mübarizəsi şəraitində keçəcəyinə və şahmatçıların ölkələrini layiqincə təmsil edəcəklərinə əminliklə “Naxçıvan-2019” Beynəlxalq Şahmat Festivalını açıq elan etmiş, idmançıların hər birinə qələbə arzulamışdır.





Azərbaycan Respublikasının Gənclər və İdman naziri Azad Rəhimov çıxış edərək demişdir ki, ölkəmizdə bədən tərbiyəsi və idmanın inkişafı, idmanın maddi-texniki bazasının gücləndirilməsi və bu sahədə qazanılan nailiyyətlər ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli liderin ölkəmizə rəhbərliyi dövründə digər idman növləri kimi, şahmat da inkişaf etmişdir. Bu gün ulu öndərin siyasi kursunun layiqli davamçısı ölkə Prezidenti cənab İlham Əliyev də idmanın, o cümlədən şahmatın inkişafına xüsusi diqqət yetirir. Azərbaycan dünyada şahmatın inkişafına dair Dövlət Proqramı qəbul edən ilk ölkədir. Bu, şahmatın inkişafına göstərilən dövlət qayğısının bariz nümunəsidir. Artıq gənclərin zehni inkişafında mühüm vasitə olan şahmat ölkəmizdə çox sevilən idman növünə çevrilib. Azərbaycanda şahmat üzrə yüksək səviyyəli beynəlxalq turnirlər, o cümlədən Naxçıvanda ulu öndərin doğum gününə həsr olunmuş beynəlxalq şahmat festivalı keçirilir.

Azərbaycan Respublikası Şahmat Federasiyasının sədri Elman Rüstəmov çıxış edərək demişdir ki, ulu öndər Heydər Əliyev ölkəmizə hər iki rəhbərliyi dövründə şahmatın inkişafına dövlət səviyyəsində qayğı göstərmişdir. Dahi rəhbərin siyasi xəttinin ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi Azərbaycanda digər sahələrlə yanaşı, şahmatın da davamlı inkişafına, tədrisinə və kütləviliyinə səbəb olmuşdur. Bu gün Azərbaycan dünyada şahmat ölkəsi kimi tanınır. Kişi və qadınlardan ibarət milli komandalarımız beynəlxalq şahmat yarışlarında uğurlar qazanırlar. Eyni zamanda Azərbaycanda şahmat üzrə mötəbər beynəlxalq yarışlar keçirilir. 2015-ci ildə şahmat üzrə Dünya Kubokunun, 2016-cı ildə isə Ümumdünya Şahmat Olimpiadasının Bakı şəhərində keçirilməsi, eləcə də hər il ənənəvi olaraq Naxçıvanda ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş beynəlxalq şahmat festivalının təşkil edilməsi bunu bir daha təsdiq edir. Bu gün Naxçıvanda yaradılan şahmat infrastrukturu, şahmatın inkişafı və tədrisi sahəsində görülən işlər nümunə gücündədir. Azərbaycan Respublikasının Şahmat Federasiyası ilə Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyası arasında əlaqələrin gücləndirilməsi isə perspektivli şahmatçıların üzə çıxarılmasına töhfə verir. Elman Rüstəmov muxtar respublikada şahmatı hərtərəfli himayə etdiyinə görə Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Türkiyə Respublikası Şahmat Federasiyasının prezidenti, Beynəlxalq Şahmat Federasiyasının vitse-prezidenti Gülkız Tülay Naxçıvanda olmaqdan və şahmat festivalının təşkilindən böyük məmnunluq duyduğunu bildirərək demişdir: “Azərbaycan xalqının ümummilli lideri, Türk dünyasının böyük oğlu Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə onun vətənində keçirilən beynəlxalq şahmat festivalı mühüm əhəmiyyətə malikdir. Ölkələrimiz arasındakı əlaqələrin uğurlu inkişafı bir çox sahələrlə yanaşı,

*Ardı 2-ci səhifədə*








idmanı da əhatə edir. Xüsusilə şahmat sahəsindəki əməkdaşlıq məmnunluq doğurur. Türkiyədə şahmat inkişaf edir. Bu işdə Azərbaycan şahmatçılarının, şahmat müəllimlərinin və ustalarının böyük əməyi vardır. Naxçıvandakı şahmat məktəbləri örnək və nümunə kimi qəbul edilir. Ona görə də Naxçıvanda şahmatın inkişafı sahəsində görülən işlər beynəlxalq səviyyədə tanıdılmalı və təbliğ olunmalıdır”.

Beynəlxalq dərəcəli hakim, şahmat festivalının baş hakimi Faiq Həsənov demişdir ki, Naxçıvanda şahmat festivalı yüksək səviyyədə təşkil olunur. 9 ildir, keçirilən festival Beynəlxalq Şahmat Federasiyasının təqviminə ən yaxşı festival kimi daxil edilib. Hər il festivalda dünya və Avropa çempionları, beynəlxalq reytinqli və istedadlı gənc şahmatçılar iştirak edirlər. Bu da onu göstərir ki, beynəlxalq şahmat ictimaiyyəti festivala mühüm əhəmiyyət verir. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş “Naxçıvan-2019” Beynəlxalq Şahmat Festivalının yüksək səviyyədə təşkil olunması yarışların uğurla keçirilməsinə əminlik yaradır.

Bildirilmişdir ki, “Naxçıvan-2019” Beynəlxalq Şahmat Festivalında 14 ölkədən 356 şahmatçı iştirak edir. Festivalda iştirak edən şahmatçılar arasında 20 beynəlxalq qrossmeyster, 15 beynəlxalq usta və 15 FİDE ustası vardır.

Sonra şahmat festivalının püşkü atılmışdır.

Tədbirdə Naxçıvan Dövlət Filarmoniyasının kollektivi konsert proqramı ilə çıxış etmişdir.

* * *

Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədri Seymur Talıbov Azərbaycan Respublikası Şahmat Federasiyasının vitse-prezidenti vəzifəsinə təyin edilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**


AZƏRBAYCAN ŞAHMAT FEDERASİYASI
AZERBAIJAN CHESS FEDERATION
AZ1010-Azerbaijan, Baku, K.Safaraliyeva 12
tel:(+99412) 511 13 56, email:azerbaijanchess@yahoo.com

№ 23/06 ASF
23.04.2019

ƏMR №3

Bakı şəhəri 23.04.2019

**Talıbov Seymur Vasif** oğlu Azərbaycan Şahmat Federasiyasının vitse-Prezidenti vəzifəsinə təyin edilsin.

Azərbaycan Şahmat Federasiyasının Prezidenti Elman Rüstəmov

# Beynəlxalq Şahmat Festivalına start verilib

Azərbaycan Respublikası Gənclər və İdman naziri Azad Rəhimovun, Azərbaycan Şahmat Federasiyasının prezidenti Elman Rüstəmovun, Azərbaycan Respublikası Şahmat Federasiyasının vitse-prezidenti, Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının sədri Seymur Talıbovun və Türkiyə Respublikası Şahmat Federasiyasının prezidenti, Beynəlxalq Şahmat Federasiyasının (FİDE) vitse-prezidenti Gülkız Tülayın şahmat lövhəsi üzərindəki rəmzi gedişləri ilə “Naxçıvan-2019” Beynəlxalq Şahmat Festivalına start verilib.





Festival çərçivəsində zəka sahibləri 3 qrupda mübarizə aparacaqlar. Reqlamentə əsasən beynəlxalq festivalda güclülərin (“A” qrupu, 2250-dən yuxarı reytinqli şahmatçılar), əmsalı az olanların (“B” qrupu, 2250-dən aşağı ) və uşaqların (“C” qrupu) yarışı keçiriləcək. Artıq festivalın “A” qrupunda iştirak etmək üçün 54 şahmatçı mübarizəyə başlayıb. İsveçrə sistemi üzrə 9 turdan ibarət olacaq yarışda hər iştirakçıya 40 gediş üçün 90 dəqiqə, partiya başa çatana qədər hər şahmatçıya 30 dəqiqə və hər gediş üçün əlavə 30 saniyə vaxt ayrılır.

Festivalda 14 ölkədən 356 şahmatçı iştirak edir.

Mayın 10-dək davam edəcək festival çərçivəsində bir-birindən maraqlı tədbirlər keçiriləcək.

**Xəbərlər şöbəsi**



# Naxçıvan Muxtar Respublikasının İqdır Ticarət Evi fəaliyyətə başlayıb

***Aprelin 30-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini Azər Zeynalov və muxtar respublikadan olan sahibkarlar Türkiyənin İqdır şəhərində səfərdə olmuş, Naxçıvan Muxtar Respublikasının İqdır Ticarət Evinin açılışında iştirak etmişlər.***

Əvvəlcə nümayəndə heyəti İqdır şəhərinin mərkəzində Türkiyə Respublikasının qurucusu Mustafa Kamal Atatürkün və Heydər Əliyev parkında ümummilli liderimiz Heydər Əliyevin abidələrini ziyarət etmiş, önünə gül dəstələri düzmüşlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini Azər Zeynalov İqdır Vilayətinin valisi Ənvər Ünlü ilə görüşmüş, Valilik Şərəf Dəftərini imzalamışdır. Azər Zeynalov Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun salamlarını çatdırmış, göstərdiyi qonaqpərvərliyə görə valiyə təşəkkürünü bildirmişdir.

Vali Ənvər Ünlü nümayəndə heyətini İqdır şəhərində görməkdən məmnunluğunu ifadə etmiş, onun da salamlarını Ali Məclis Sədrinə çatdırmağı xahiş etmişdir.

Sonra Naxçıvan Muxtar Respublikasının İqdır Ticarət Evinin açılışı olmuşdur.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyasının idarə heyətinin sədri Vüqar Abbasov çıxış edərək iş adamları arasındakı qarşılıqlı əlaqələrdən danışmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini Azər Zeynalov Naxçıvan Muxtar Respublikasının İqdır Ticarət Evinin istifadəyə verilməsi münasibətilə tədbir iştirakçılarını təbrik edərək demişdir: Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyənin yaxın bölgələri arasında, gömrük, iqtisadi-ticarət, təhsil, səhiyyə, mədəniyyət, ordu quruculuğu və nəqliyyat sahələrində əlaqələr uğurla inkişaf etdirilir. Hazırda Naxçıvandan İstanbul, Ankara, Bursa, Antalya, İzmir və İqdır şəhərlərinə avtobus marşrutları işləyir, İstanbul-Naxçıvan-İstanbul təyyarə reysləri həyata keçirilir. Naxçıvan-Qars avtobus marşrutunun açılması, Qars-Naxçıvan dəmir yolu layihəsinin reallaşdırılması, eləcə də Sədərək gömrük-keçid məntəqəsi üçün yeni kompleksin tikintisi əlaqələrimizin daha da genişləndirilməsinə hesablanmışdır. Hazırda Naxçıvan Muxtar Respublikasında Türkiyəyə məxsus sahibkarlıq

*Ardı 3-cü səhifədə*






subyektləri fəaliyyət göstərir. Muxtar respublikanın ali təhsil ocaqlarında isə 400-ə yaxın Türkiyə vətəndaşı müxtəlif ixtisaslar üzrə təhsil alır.

Qeyd olunmuşdur ki, 2017-ci ildə Türkiyə hökumətinin qəbul etdiyi yeni tənzimləmə qərarına əsasən Naxçıvan Muxtar Respublikasındakı istehsal müəssisələrinin Türkiyəyə məhsul ixracına güzəştlərin tətbiq olunması və muxtar respublikaya sərbəst ticarət imkanı verilməsi də ikitərəfli münasibətlərin uğurlu nəticəsidir. Özəl sektorun inkişafının nəticəsidir ki, Naxçıvan Muxtar Respublikasının dünyanın 60-a yaxın ölkəsi ilə ticarət əlaqələri vardır. Qardaş Türkiyə ilə əlaqələrin inkişafı isə bizim üçün daha önəmlidir. Bu gün Naxçıvan Muxtar Respublikasının İqdır Ticarət Evinin istifadəyə verilməsi əlaqələrimizin inkişafına daha bir töhfə olacaq, muxtar respublika sahibkarları tərəfindən istehsal olunan məhsulların təşviqi və satışına, eyni zamanda iş adamları arasında işgüzar görüşlərin təşkilinə və ticarət sövdələşmələrinin aparılmasına da şərait yaradacaqdır. Türkiyə və Azərbaycan dünyada yeganə ölkələrdir ki, onları iqtisadi və siyasi maraqlardan daha çox soy-kök, milli və ortaq dəyərlər birləşdirir. Naxçıvan Muxtar Respublikasının İqdır Ticarət Evinin fəaliyyətə başlaması iqtisadi səmərə ilə yanaşı, həm də dostluq və qardaşlıq əlaqələrimizin nəticəsidir.

Azər Zeynalov Ticarət Evinin yaradılmasında göstərdiyi hərtərəfli dəstəyə görə İqdır Vilayətinin valisinə hörmət və ehtiramını bildirmiş, bu işdə əməyi olanlara təşəkkür etmişdir.

İqdır Vilayətinin valisi Ənvər



Ünlü çıxış edərək deyib ki, son illər Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyənin İqdır Vilayəti arasında səmərəli iqtisadi əlaqələr qurulmuşdur. Bu gün istifadəyə verilən Naxçıvan Muxtar Respublikasının İqdır Ticarət Evi də mövcud əlaqələrin daha bir nümunəsidir. Ticarət Evinin qarşılıqlı iqtisadi inkişafa öz töhfəsini verəcəyinə əminliyini ifadə edən Ənvər Ünlü bu təşəbbüsə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirmişdir.

Sonra açılışı bildirən lent kəsilmişdir.

Məlumat verilmişdir ki, iki mərtəbədən ibarət olan Ticarət Evi məhsulların nümayişi bölməsi və iş otaqlarından ibarətdir. Burada muxtar respublikada fəaliyyət göstərən sahibkarlıq subyektləri tərəfindən istehsal olunan məhsullar nümayiş etdirilir. Həmçinin Ticarət Evində sahibkarlar arasında işgüzar görüşlərin keçirilməsi və ticarət sövdələşmələrinin aparılması üçün də şərait yaradılmışdır.

Həmin gün İqdır Ticarət və Sənaye Odasında muxtar respublika sahibkarları ilə iqdırlı sahibkarlar arasında görüş olub. Görüşdə qarşılıqlı əlaqələrin qurulması və investisiya qoyuluşu məsələləri müzakirə olunub.

**"Şərq qapısı"**

## Muxtar respublikada narkomaniyaya qarşı mübarizə tədbirləri yüksək qiymətləndirilib







*15-17 aprel tarixlərində Bakıda Azərbaycan Respublikası Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının və Amerika Birləşmiş Ştatlarının Ədliyyə Departamentinin Narkotiklərlə Mübarizə Administrasiyasının birgə təşkilatçılığı ilə Narkotiklərə Mübarizə üzrə 36-cı Beynəlxalq Konfrans (IDEC) keçirilib.*

Konfransın məqsədi narkotiklərin qanunsuz dövriyyəsinə qarşı qlobal mübarizəyə cəlb olunmuş yüksək vəzifəli rəsmiləri bir araya gətirmək, bu başəri problemin həlli yollarını müzakirə etmək, fikir və qabaqcıl təcrübə mübadiləsi aparmaqdır. Bəşəriyyəti ciddi narahat edən, yeni təhlükələrə və bəlalara yol açan narkotiklərə tələbatın azaldılması yollarının tapılması baxımından nadir platforma olan beynəlxalq konfransın əsası 1983-cü ildə qoyulub. Sonradan o, 130-dan çox ölkədən olan nümayəndələrin iştirakı ilə keçirilən ümumdünya forumuna çevrilib.

Dünyanın 150-dən çox ölkəsindən 500-dək nümayəndənin qatıldığı beynəlxalq konfransın plenar iclaslarında regional işçi qrupların təqdimatları olub.

Naxçıvan Muxtar Respublikasında narkomaniya və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri konfransda yüksək qiymətləndirilib və muxtar respublikaya xatirə medalı təqdim olunub.

**"Şərq qapısı"**

## Startap layihələrinin təqdimatı olub



Naxçıvan Dövlət Universitetində Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin əməkdaşları ilə birgə startap layihələri müzakirə olunub. Tədbiri giriş sözü ilə universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açaraq bildirib ki, müvafiq sərəncamın məqsədi muxtar respublikada investisiya mühitini yaxşılaşdırmaq, yaradıcı düşüncəni və inkişafa xidmət edən ən yaxşı layihələri üzə çıxarmaq, innovativ ideyaların uğurlu biznes sahəsinə çevrilməsinə dəstək olmaqdır.

Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar naziri Rövşən Məmmədov çıxışında qeyd edib ki, müvafiq sərəncamın icrası məqsədilə artıq nazirlik və aid təşkilatların təklifləri əsasında startap layihələrinə nəzarət mexanizmini asanlaşdıran internet portalının layihəsi hazırlanıb və baxılmaq üçün təqdim olunub. Portalın yaradılmasında əsas məqsəd layihələri birləşdirib yaxşı ideya müəllifini ortaya çıxarmaqdır.

Nazir diqqətə çatdırıb ki, hami təşkilatlara birbaşa müraciət etmək fürsəti portalın imkanlarını daha da səmərəli edəcək və aparılan müzakirələrin sonunda ən yaxşı ideya müəllifi seçiləcək. Vurğulanıb ki, "İdeyadan biznesə" layihəsini irəli sürən startap müəllifləri may ayının 8-də keçiriləcək Azərbaycan milli turunun komandasına seçiləcək, oktyabr ayında isə ölkə turuna vəsiqə almış olacaqlar. Nazir layihələri qiymətləndirəcək ekspert qrupunu təqdim edib.

Sonra startap müəllifləri təqdimatla çıxış ediblər. 31 layihənin qatıldığı təqdimatda 100-123 arası bal toplayan 15 layihə mayın 8-də keçiriləcək final mərhələsinə vəsiqə qazanıb.

**Səadət ƏLİYEVA**

## "Gələcəyini planlaşdır" təlimləri keçirilir



Avropa İttifaqı və BMT-nin İnkişaf Proqramı tərəfindən "Genderə həssas dayanıqlı inkişaf məqsədlərinin həyata keçirilməsində vətəndaş cəmiyyətinin rolunun artırılması" adlı genişmiqyaslı proqram maliyyələşdirilir və icra olunur. Dünən Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə həmin proqram əsasında Azərbaycan Mikromaliyyə Assosiasiyası tərəfindən icra olunan "Qadınların dayanıqlı inkişaf üçün səlahiyyətləndirilməsi" adlı layihə çərçivəsində Naxçıvan Muxtar Respublikasında maliyyə savadlılığı üzrə "Gələcəyini planlaşdır" təlimlərinə start verilib.

Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova bildirib ki, Naxçıvan Muxtar Respublikasında həyata keçirilən sosial-iqtisadi siyasətin nəticəsi olaraq muxtar respublikada yaradılan şərait qadınların ictimai-siyasi və sosial-mədəni həyata daha fəal cəlb olunmasını şərtləndirməklə yanaşı, həm də onların öz potensiallarını sərbəst, səmərəli şəkildə reallaşdırmalarına yol açır. Naxçıvan qadınları yaradılmış imkanlardan istifadə edərək bütün sahələrdə fəaliyyət göstərir, xüsusən də özəl sektorda geniş təmsil olunurlar. Bu gün muxtar respublikada fəal əməklə məşğul olan və iqtisadiyyatın müxtəlif sahələrində işləyən əhalinin 33 faizini qadınlar təşkil edir.

Vurğulanıb ki, ölkəmizdə qəbul edilmiş dövlət proqramlarının icrası, sahibkarlığa dövlət dəstəyi mexanizmlərinin genişləndirilməsi, insanların, o cümlədən qadınların işə olan münasibətini dəyişmiş, onların sahibkarlıqla, xüsusən də ailə-kəndli fermer təsərrüfatlarının yaradılması ilə bağlı maraqlarını daha da gücləndirmişdir. Muxtar respublikada qadınların sahibkarlıq fəaliyyəti ilə məşğul olmasına yaradılan şərait digər sahələrdə olduğu kimi, özəl sektorda da yüksək nailiyyətlər əldə etməsinə öz təsirini göstərir. Hazırda muxtar respublikada 5478-i fiziki, 49-u isə hüquqi şəxs olmaqla, ümumilikdə, 5527 qadın sahibkarlıq fəaliyyəti ilə məşğuldur. Sahibkar qadınlar, əsasən, istehsal, ictimai iaşə sahələri, sənaye materiallarının satışı və digər ticarət və xidmət sahələrində fəaliyyət göstərirlər. Sahibkar qadınlar muxtar respublikada həyata keçirilən geniş quruculuq tədbirlərində yaxından iştirak edir və sosial-iqtisadi inkişafa öz töhfələrini verirlər.

Komitə sədri onu da qeyd edib ki, "Qadınların dayanıqlı inkişaf üçün səlahiyyətləndirilməsi" layihəsi çərçivəsində maliyyə savadlılığı üzrə "Gələcəyini planlaşdır" təlimi qadınların, xüsusilə də sağlamlıq imkanları məhdud olan qadınların sahibkarlıq fəaliyyətinə təşviqi məqsədi daşıyır.

Bildirilib ki, təlimlər zamanı fiziki qüsurlu və aztəminatlı ailələrdən olan qadınlar da daxil olmaqla, muxtar respublikanın bütün rayonlarından və Naxçıvan şəhərindən olan 250 qadın iştirak etməklə 7 təlim keçiriləcəkdir. Hər təlim 2 gün davam etdiriləcək və tədbir iştirakçılarına təlimlərin sonunda sertifikatlar təqdim olunacaqdır.

Ramilə Seyidova çıxışının sonunda təlim iştirakçılarına uğurlar arzulayıb.

Təlimdə Azərbaycan Mikromaliyyə Assosiasiyasının layihə rəhbəri Sevinc Rüstəmova layihə və maliyyə savadlılığı təlimi ilə bağlı qadınlara məlumat verib. O qeyd edib ki, bu təlim modulu qadınlar üçün büdcə planlaşdırması, borc idarəetmə üsulları, qənaət vərdişləri və digər bacarıqlarla bağlı geniş spektrli təlim imkanları yaratmaqla, onların iqtisadi səlahiyyətlərinin artırılmasına və maliyyə müstəqilliyinin təmin edilməsinə dəstək göstərəcək.

Diqqətə çatdırılıb ki, keçiriləcək təlimlər 250 nəfərdən artıq qadının maliyyə savadlılığının, maliyyə resurslarına çıxışının və təşkilati bacarıqlarının yaxşılaşmasına imkan verəcək. Onlar arasından ən yaxşı biznes ideyasına malik 50 qadın "Öz biznesinə başla və onu təkmilləşdir" təlimlərinə dəvət olunacaq və həmçinin təlimlər dayanıqlı inkişaf üzrə 2030-cu il gündəliyinin və dayanıqlı inkişaf məqsədlərinin icrasının sürətləndirilməsi ilə bağlı Azərbaycanın üzərinə götürdüyü öhdəliyə dəstək olaraq 4-cü (keyfiyyətli təhsil), 5-ci (gender bərabərliyi) və 8-ci (layiqli əmək və iqtisadi artım) qlobal məqsədlərin icrasına töhfə verəcək.

Qeyd edək ki, Naxçıvan şəhər qadınları üçün təşkil olunan təlim bu gün yekunlaşacaq, təlim zamanı iştirakçılara iaşə xidməti də göstərilib.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Qaliblərə mükafatlar təqdim edilib



***"Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının, Təhsil, Gənclər və İdman nazirliklərinin birgə təşkilatçılığı ilə keçirilən "Sərhəd" hərbi-idman oyununun Naxçıvan Muxtar Respublikası üzrə zona birinciliyinin II turu keçirilib.***

Tədbirdə "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının qərargah rəisi, polkovnik-leytenant Anar Nəsirli, diviziyanın zabiti, baş leytenant Tural Xudaverdiyev, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin əməkdaşı Elxan Babayev, Gənclər və İdman Nazirliyinin əməkdaşı Valeh Mahmudov çıxış ediblər. Bildirilib ki, muxtar respublikanın 7 sərhədyanı rayonunun 29 məktəbinin 95 şagirdinin iştirak etdiyi builki "Sərhəd" hərbi-idman oyunu üç mərhələdə təşkil olunub. Aprel ayından start verilən oyunlarda sərhədyanı kəndlərdəki tam orta məktəblərin şagirdləri iştirak edib və ilkin mərhələnin qalibləri növbəti mərhələyə vəsiqə qazanıblar. Bu gün zona üzrə keçirilən ikinci turda isə 7 məktəbin 35 şagirdi iştirak edir. II turun qalibi Lənkəran Sərhəd Dəstəsinin bazasında keçiriləcək ölkə birinciliyində muxtar respublikanı təmsil edəcək.

Sonra oyuna start verilib. Komandalar sıra hazırlığı, süni nəzarət zolağının yaradılması, kəndirin dartılması, maneələrin dəf olunması, yaralanmış sərhəd naryadı üzvünə ilkin tibbi yardımın göstərilməsi və onun təxliyəsi və digər mərhələlərdə öz bacarıqlarını nümayiş etdiriblər. Gərgin mübarizə şəraitində keçən oyunun sonunda Naxçıvan şəhər 9 nömrəli tam orta məktəbin komandası I, Məhəmməd Füzuli adına Ordubad şəhər internat tam orta məktəbinin komandası II, Kəngərli rayon Böyükdüz kənd tam orta məktəbinin komandası III yerə layiq görülüblər. Qalib komandalara təşkilatçılar tərəfindən kubok, medal, diplom və qiymətli hədiyyələr təqdim olunub. Həmçinin oyunun ayrı-ayrı mərhələlərində fərqlənən şagirdlərə fəxri fərmanlar verilib.

Qeyd edək ki, Lənkəran Sərhəd Dəstəsinin bazasında keçiriləcək ölkə birinciliyində muxtar respublikanı Naxçıvan şəhər 9 nömrəli tam orta məktəbin komandası təmsil edəcək.

**✍ Nail ƏSGƏROV**

## Beynəlxalq Şahmat Federasiyasının vitse-prezidenti: Naxçıvandakı şahmat məktəbləri bütün dünyaya nümunə göstərilə bilər




“Naxçıvan-2019” Beynəlxalq Şahmat Festivalı çox yüksək səviyyəli bir turnirdir. Festivalda güclü reytinqə malik olan bir sıra şahmatçının iştirakı da bunu təsdiq edir.

Bu sözləri “Şərq qapısı” qəzetinə müsahibəsində Türkiyə Respublikası Şahmat Federasiyasının prezidenti, Beynəlxalq Şahmat Federasiyasının (FİDE) vitse-prezidenti Gülkız Tülay deyib.

İkinci dəfədir ki, muxtar respublikada keçirilən Beynəlxalq Şahmat Festivalının açılış mərasimində iştirak etdiyini vurğulayan Gülkız Tülay qeyd edib ki, ötən il Culfa, Ordubad və Babək rayonlarında fəaliyyət göstərən uşaq-gənclər şahmat məktəblərində olub, burada dərs prosesini izləyib, turnirlərdə uğurlar qazanan gənc şahmatçılarla görüşüb və Naxçıvanda şahmatın inkişafının, kütləviliyinin təmin edilməsi istiqamətində böyük işlər görüldüyünün şahidi olub.

“Naxçıvandakı şahmat məktəbləri bütün dünyaya nümunə göstərilə biləcək səviyyədədir. Türkiyədə də şahmat inkişaf etdirilib, ancaq təhsildən fürsət qalanda şahmata və yaxud başqa fəaliyyətlərə vaxt ayrılır. Azərbaycanda, o cümlədən muxtar respublikada isə şahmat artıq təhsilin bir hissəsinə çevrilib”, – deyən Türkiyə Respublikası Şahmat Federasiyasının prezidenti onu da bildirib ki, muxtar respublikaya hər səfərində Naxçıvanın tarixiliyi və müasirliyi onu valeh edib.

Gülkız Tülay deyib: “Naxçıvan çox gözəldir. Muxtar respublikanın iqlimi Türkiyənin iqliminə çox oxşayır. Mən bütün dostlarıma gəlib Naxçıvanı görməyi tövsiyə edirəm. Gələcəkdə bura bir daha səfər etməyi düşünürəm”.

**Tural AĞAYEV**

## Naxçıvan özünü dünya arenasında şahmat məkanı kimi tanıdıb

***Məlum olduğu kimi, dünən ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilən “Naxçıvan-2019” Beynəlxalq Şahmat Festivalı start götürüb. Festivalda iştirak edən naxçıvanlı zəka sahiblərinin, eyni zamanda Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti Faiq Həsənovun fikirlərini öyrəndik.***



***Faiq HƏSƏNOV – Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti:*** – Cari ildə keçirilən şahmat festivalı digərlərindən çox fərqlənir. İlk olaraq başqa ölkələrdən gələn iştirakçılar Naxçıvanın necə qonaqpərvər bir diyar olduğunu görürlər. Nəticədə, digər şahmatçıların da bu festivala marağı ilbəil artır. Yüksək reytinqli şahmatçıların da Naxçıvana üz tutması səbəbindən turnirin səviyyəsi də ildən-ilə yüksəlir. Etiraf edək ki, ilk dəfə təşkil olunarkən xeyli çətinliklər yarandı – şahmatçıları bura dəvət etmək heç də asan olmadı. Çünki Naxçıvanı tanımırdılar və turnirin necə keçəcəyini bilmirdilər. İndi isə bütün şahmatçıların özləri bizə şahmat festivalında mübarizə aparmaq üçün müraciət edirlər. Biz bu festival barədə məlumat yaydıqdan dərhal sonra müraciətlər başlayır. Artıq deyə bilərəm ki, Naxçıvan özünü dünya arenasında şahmat məkanı kimi tanıdıb və FİDE-də ən reytinqli festivallardan biridir. Hazırda keçirilən festivalı digərlərindən fərqləndirən başqa cəhət əhatə dairəsinin genişlənməsidir. Belə ki, ilk dəfədir, bu festivalda Amerika Birləşmiş Ştatlarından olan şahmatçı da iştirak edir. Bildiyiniz kimi, ABŞ çempionatı çox güclüdür və orada ilk 10 pilləni tutan şahmatçılar beynəlxalq turnirlərdə, yarışlarda çıxış edirlər. Həmin şahmatçı da onlardan biridir.



***Urfan SEVDİMALIYEV – qrossmeyster:*** – Artıq 9-cu dəfədir ki, Beynəlxalq Şahmat Festivalında iştirak edirəm və bunların dördündə mükafatçılar sırasına düşmüşəm. Belə bir festivalın muxtar respublikamızda təşkil olunması möhtəşəm bir hadisədir. Biz şahmatçılar reytinqli turnirlərdə mübarizə apardıqca oyun təcrübəmiz artır. Bir daha belə bir mötəbər turnirin təşkilatçılarına minnətdarlığımı bildirirəm.



***Toğrul HƏSƏNZADƏ – beynəlxalq usta:*** – Bu festivalın başlamasını hər bir şahmatçı kimi, mən də səbirsizliklə gözləyirdim. Çünki Naxçıvanda təşkil olunan turnir şahmatçılarımızda bayram əhval-ruhiyyəsi yaradır. Burada iştirak etməklə oyun təcrübəmizi artırır, həm də digər ölkələrin şahmatçıları ilə dostluq münasibətləri yaranır. Belə bir festivalın keçirilməsi Naxçıvanda şahmata və şahmatçılara göstərilən diqqət və qayğının bariz nümunəsidir.



***Pərviz QASIMOV – FİDE ustası:*** – Kiçik yaşlarımdan belə mötəbər festivalda iştirak etdiyim üçün özümü xoşbəxt sayıram. Festivalda bizim qazancımız beynəlxalq təcrübə toplamağımız və əcnəbi şahmatçılara qarşı layiqli mübarizə aparmağımız, ölkəmizin adını yüksəklərə qaldırmağımızdır. Uzun illərdir ənənə halını alan bu turnir bir daha onu göstərir ki, Naxçıvanda şahmatın inkişafı üçün hər bir imkan yaradılıb. Cari festivalda uğur qazanıb muxtar respublikanın şahmat ənənələrini layiqincə davam etdirəcəyimə inanıram.



***Sadiq MƏMMƏDOV – FİDE ustası:*** – FİDE-nin reytinqində ən yaxşı festivallardan hesab olunan turnirdə iştirak etmək qürurvericidir. Festivalda “A” qrupunda mübarizə aparıram və burada dünyanın bir çox tanınmış şahmatçıları ilə qarşılaşacağam. Onlarla eyni şahmat taxtası arxasında mübarizə aparmaq mənə çox təcrübə qazandıracaq. Keçirəcəyim görüşlərdə qalib gəlib mükafatçılar sırasına düşməyə çalışacağam.

**Ceyhun MƏMMƏDOV**

## Azərbaycan Şahmat Federasiyasının prezidenti: “Naxçıvan-2019” Beynəlxalq Şahmat Festivalına böyük maraq var




Ulu öndərimiz Heydər Əliyevin doğulub boya-başa çatdığı qədim Naxçıvanda keçirilən ənənəvi Beynəlxalq Şahmat Festivalına böyük maraq var. Artıq bütün dünya şahmatçıları bu turnirin keçirilməsini səbirsizliklə gözləyirlər. Bu il də festivalda çoxsaylı şahmatçı iştirak edir.

“Şərq qapısı” qəzetinə müsahibəsində bu sözləri Azərbaycan Şahmat Federasiyasının prezidenti Elman Rüstəmov deyib.

O, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilən doqquzuncu “Naxçıvan-2019” Beynəlxalq Şahmat Festivalının açılış tədbirinin möhtəşəm olduğunu və festivalın Azərbaycanın, həmçinin beynəlxalq şahmat təqvimində mühüm yer tutduğunu qeyd edib.

Elman Rüstəmov bildirib ki, festivalda 14 ölkədən, təxminən, 356 şahmatçı iştirak edir və onlar üç qrupda mübarizə aparacaqlar.

O, Naxçıvanda keçirilən böyük şahmat bayramının uğurla nəticələnəcəyinə əmin olduğunu vurğulayıb.

Azərbaycan Şahmat Federasiyasının prezidenti deyib: “Fürsətdən istifadə edərək muxtar respublika rəhbərinə festivalın yüksək səviyyədə təşkilinə göstərdiyi dəstəyə görə minnətdarlığımı bildirirəm. Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının yeni seçilmiş sədri və Azərbaycan Şahmat Federasiyasının vitse-prezidenti təyin olunan Seymur Talıbova da gələcək fəaliyyətində uğurlar arzulayıram. Ümidvaram ki, muxtar respublikada şahmatın kütləviliyi və inkişaf etdirilməsi istiqamətində əməkdaşlığımızla mühüm nailiyyətlər qazanacağıq”.

**Rauf KƏNGƏRLİ**

## Kikboksçularımız ölkə birinciliyində 4 medal qazanıb




Bakı şəhərindəki Sərhədçi Olimpiya-İdman Kompleksində kikboksinq üzrə katedlər arasında ölkə birinciliyi və böyüklər arasında ölkə çempionatı keçirilib.

Birincilikdə Naxçıvan Muxtar Respublikası Kikboksinq Federasiyasının yığma komandasının idmançıları da mübarizə aparıblar.

Oğlanların mübarizəsində Ruslan Musayev böyük uğura imza atıb. Belə ki, 63 kiloqram çəki dərəcəsində idmançımız qalib adını qazanıb. 26 kiloqram çəki dərəcəsində Sadiq Kərimov üçüncü olub.

Qızların mübarizəsində Röya Abdullayeva (32 kiloqram) və Duyğu Hüseynova (50 kiloqram) bütün rəqiblərinə qalib gələrək birinci yerə layiq görülüblər.

Qalib idmançılarımıza Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən diplom və medallar təqdim olunub.

## Güləşçimiz bürünc medala sahib olub



Balakən Olimpiya-İdman Kompleksində 2004-2005-ci illər təvəllüdlü yeniyetmələr arasında sərbəst güləş üzrə Azərbaycan çempionatı keçirilib.

Çempionatda Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının 4 idmançısının da iştirakı təmin edilib. Dörd gün davam edən ölkə birinciliyində 62 kiloqram çəki dərəcəsində mübarizə aparan idmançımız Yaqub Quliyev bürünc medal qazanıb.

Güləşçimiz təşkilatçılar tərəfindən diplom və medalla mükafatlandırılıb.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Festivalın ilk turu başa çatıb






Naxçıvan şəhərindəki Şahmat Mərkəzində ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilmiş “Naxçıvan-2019” Beynəlxalq Şahmat Festivalının ilk turu artıq yekunlaşıb və nəticələr məlum olub. 14 ölkənin – Belarus, Latviya, Amerika Birləşmiş Ştatları, Belçika, Ukrayna, İran, Gürcüstan, Yunanıstan, Özbəkistan, Qazaxıstan, Türkiyə, Rusiya, Hindistan və Azərbaycanın 54 zəka sahibinin gərgin mübarizəsi elə ilk turdan özünü büruzə verib. Turnirin ən yüksək reytinqli şahmatçısı, belaruslu qrossmeyster Vladislav Kovalyev (2678-beynəlxalq əmsal), rusiyalı FİDE ustası Aleksandr Demyanjukla (2338) qarşılaşıb və görüş birincinin qələbəsi ilə başa çatıb.

Azərbaycanlı qrossmeyster, turnirin ən reytinqli ikinci şahmatçısı Nicat Abasov (2633) ilk turda azərbaycanlı FİDE ustası Aydın Süleymanlını (2334) sınağa çəkib. Gərgin keçən görüş Nicat Abasovun üstünlüyü ilə yekunlaşıb.

Azərbaycanlı qrossmeyster Eltac Səfərli (2624) və azərbaycanlı beynəlxalq usta Nail Bəşirli (2333) arasında keçən görüşdə isə qələbəni Eltac bayram edib.

İlk turun yaddaqalan digər görüşlərində belaruslu qrossmeyster Aleksey Aleksandrov (2603) hindistanlı FİDE ustası Mithil Ajqaonkaru (2332), latviyalı qrossmeyster Nikita Meşkovsla (2574) isə azərbaycanlı qrossmeyster Sərhan Quliyevi (2330) məğlub etməyi bacarıb.

Turnirin ən reytinqli 10-cu şahmatçısı, ukraynalı qrossmeyster Eldar Qasanov (2506) türkiyəli FİDE ustası Əmirxan Tarlabaşı (2323) ilə “sülh” bağlayıb.

Yunanıstanlı qrossmeyster Vasilios Kotronias (2474) isə hindistanlı FİDE ustası Nixil Dixitə (2302) şans tanımayıb.

“A” qrupunda Naxçıvan Muxtar Respublikasını 5 zəka sahibi təmsil edir. Qrossmeyster Urfan Sevdimalıyev (2352) ustalığa namizəd Ayan Allahverdiyevadan (2076) üstün olub. Beynəlxalq usta Toğrul Həsənzadə (2323) ilk turda belaruslu qrossmeyster Vadim Malaxatkoya (2508), digər beynəlxalq usta Talıb Babayev (2329) isə turnirdə çıxış edən ABŞ-lı qrossmeyster Timur Qarayevə (2560) məğlub olublar. FİDE ustalarımızdan Sadiq Məmmədov (2205) azərbaycanlı beynəlxalq usta Kənan Qarayevi (2368) ağ-qara taxtadan mat yola salıb. Pərviz Qasımov (2328) isə azərbaycanlı qrossmeyster Fərid Abbasovla (2534) xalları yarı bölüb.

İlk turdan sonra 20 şahmatçının aktivində bir xal var.

Əmsalı nisbətən aşağı olan şahmatçıların mübarizə apardığı “B” qrupunda isə ölkənin müxtəlif regionlarından 104 zəka sahibi qüvvəsini sınayır. İlk turdan sonra 50 şahmatçı maksimum xal toplayaraq turnir cədvəlinə liderlik edir.

Cari ildə “Naxçıvan-2019” Beynəlxalq Şahmat Festivalının “C” qrupunda rekord sayda – 186 şahmatçı qüvvəsini sınayır ki, onların da 67-nin beynəlxalq əmsalı 1000-dən çoxdur. İlk turdan sonra 84 şahmatçı maksimum xal toplamağa nail olub.

**C.MƏMMƏDOV**

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 300